

Aqrar Tədarük
və Təchizat

# Azərbaycan Kənd Təsərrüfatı Məhsulları:
## Sərgi və Dequstasiya

22 Yanvar 2020

# **Azərbaycan Kənd Təsərrüfatı Məhsulları:** Sərgi və Dequstasiya

22 yanvar 2020, Dubay, BƏƏ

Aqrar Tədarük və Təchizat

- Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və Təchizat" ASC-nin və Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki Ticarət Nümayəndəsi Aparatının təşkilatçılığı, Azərbaycanın BƏƏ-dəki Səfirliyinin dəstəyi ilə Dubayda “Azərbaycan kənd təsərrüfatı məhsulları: Sərgi və dequstasiya” tədbiri keçirilib.

- Tədbirin keçirilməsində əsas məqsəd ixrac potensialı böyük olan yerli istehsal kənd təsərrüfatı və qida məhsullarının tanıdılması, ixrac kanalllarının araşdırılması və yeni işgüzar əlaqələrin qurulmasıdır.

- Tədbirdə Azərbaycanın BƏƏ-dəki səfirliyinin, "Aqrar Tədarük və Təchizat" ASC-nin, BƏƏ İqtisadiyyat Nazirliyinin, Dubay Ticarət və Sənaye Palatasının rəhbər şəxsləri, Azərbaycanın BƏƏ-dəki Ticarət Nümayəndəsi Aparatının, Dubay şəhərindəki Baş Konsulluğun nümayəndələri, Azərbaycandan qida istehsalçıları və aqrar sahibkarlar, BƏƏ-dən biznes strukturların nümayəndələri iştirak edib.












# **Azərbaycan Kənd Təsərrüfatı Məhsulları:** Sərgi və Dequstasiya

22 yanvar 2020, Dubay, BƏƏ

Aqrar Tədarük və Təchizat







- Tədbirdə Azərbaycanın BƏƏ-dəki ticarət nümayəndəsi Elnur Əliyev, "Aqrar Tədarük və Təchizat" ASC İdarə Heyətinin sədri Leyla Məmmədova, Azərbaycanın BƏƏ-dəki fövqəladə və səlahiyyətli səfiri Mahir Əliyev öz təqdimatları ilə çıxış etmiş, ölkələr arasında işgüzar münasibətlərin artan templə davam etdiyini vurğulamışlar.

- Tədbirin mədəni hissəsində Azərbaycan milli rəqsləri təqdim edilib. Daha sonra qonaqlar Azərbaycan kənd təsərrüfatı və qida məhsullarından ibarət sərgi ilə tanış olub. Sərgidə "Aqrar Tədarük və Təchizat" ASC-nin stendi ilə yanaşı, Azərbaycanın yerli qida istehsalçıları və aqrar sahibkarlar da öz məhsullarını nümayiş etdiriblər. Sərgi zamanı ixrac potensialı yüksək olan və müxtəlif aqrar sahibkarların yetişdirdikləri yerli məhsulların (bal, təzə meyvələr, quru meyvələr, çay, düyü, ət, fındıq və.) təqdimatı və dequstasiyası da təşkil olunub.

- Tədbirin davamı olaraq Azərbaycan və BƏƏ-dən olan sahibkarlar və biznes strukturlar arasında ikitərəfli görüşlər keçirilib.

- Xarici ölkələrlə işgüzar əlaqələrin gücləndirilməsi məqsədilə bu tipli görüşlərin davamı nəzərdə tutulur.